# Qarabağ və Şərqi Zəngəzur sürətli quruculuq nəticəsində cənnətə çevrilir

**Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərimizdə dərhal quruculuq işlərinə başlanılıb. 2023-cü ildə antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi, bununla da yenidənqurma işləri bütün Qarabağ və Şərqi Zəngəzurda geniş vüsət aldı. Məhz aparılan bu sürətli quruculuq işlərinin nəticəsidir ki, artıq minlərlə soydaşımız öz doğma yurd yerlərinə dönüblər və bu prosses sürətlə davam edir.**



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, dövlətimizin başçısı doğma yurd yerlərinə dönən soydaşlarımızla görüşür və onlarla çox səmimi söhbətlər edir: "Əminliklə deyə bilərəm ki, dünyada elə bir dövlət başçısı yoxdur ki,  sadə vətəndaşları ilə bu qədər yaxın və səmimi ünsiyyət qursun. Bu, cənab İlham Əliyevin öz xalqına olan sevgisindən irəli gəlir və onun böyük Lider olmasının sübutudur. Bu il sentyabrın 14-ü və 15-də Prezident İlham Əliyev Füzuli rayonunun Qaraxanbəyli kəndinin təməlini qoydu, Hadrut qəsəbəsində inşa edilmiş məscidin açılışını etdi. Xocavənd rayonunun Qırmızı Bazar, Hadrut qəsəbəsinin Sos kəndinin, Xocalının Şuşakənd, Seyidbəyli, Badara və Daşbulaq kəndlərinə köçən sakinlərlə görüşdü. Görüşdə iştirak edən istər yaşlı, istərsə də gənc nəslin hər bir nümayəndəsi ölkə başçımıza olan böyük sevgisini dilə gətirdi. Bu insanların hər birinin üzündən sevinc yağırdı. Bu görüşlərdə bir daha şahid olduq ki, xalqımız öz liderinə inanır, güvənir və onun həyata keçirdiyi daxili və xarici siyasəti ürəkdən dəstəkləyir".

Prezident İlham Əliyevin hər zaman Azərbaycan xalqının milli maraqlarını uca tutduğunu qeyd edən ekspert deyib ki, dövlət başçısı dünyaya Azərbaycan xalqının nə qədər döyüşkən, təcavüzə baş əyməyən, həm də sülhsevər bir xalq olduğunu göstərdi. Dövlət başçımız müharibədə qalib ölkə olmağımıza baxmayaraq, Azərbaycan dövlətinin sülh tərəfdarı olduğunu bəyan etdi.

O xatırladıb ki, avqustun 8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistanın Baş naziri ilə görüşdə də Prezidentimiz sülh tərəfdarının Azərbaycan dövləti olduğunu bəyan edib. Azərbaycanla Ermənistan sülhə bu qədər yaxın olduğu vaxtda bəzi qüvvələr hələ də iki dövlət arasında münaqişə yaratmağa çalışırlar. Xocalı sakinləri ilə görüşdə Prezidentimiz bu cür qüvvələrə bir daha mesaj ötürdü. Azərbaycan dövləti  sülh tərəfdarı olmaqla yanaşı, heç vaxt təcavüzlə, haqsızlıqla barışmayıb. "Vətən müharibəsində və antiterror tədbirləri zamanı bir sıra ermənipərəst dövlətlər Azərbaycana qarşı təzyiq göstərirdilər, lakin heç bir qüvvə qarşımızda dura bilmədi. Xocalı sakinləri ilə görüşdə Prezident İlham Əliyev Azərbaycana qarşı olan qüvvələrə bir daha xatırlatdı ki, ölkəmizə qarşı yönələcək istənilən hərbi təcavüzün qarşısı Azərbaycan Ordusu tərəfindən sərt şəkildə alınacaq və heç kəs bizi dayandıra bilməyəcək", - deyə Kamilə Əliyeva bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 21 sentyabr (№ 202).- S.9.